# Mübarək Ramazan ayı

**_"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"_**

**_(Əl Bəqərə surəsi, 183-cü ayə)_**

Islamın müqəddəs bayramları içərisində orucluq bayramı mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.

Islamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə "on bir ayın sultanı" da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani Kərim nazil olmuşdur. Həmin gecəyə "qədir" və ya "ehya" gecəsi deyilir. Qədir gecəsinin konkret olaraq hansı günə təsadüf edildiyi bilinmir. Bununla bağlı müxtəlif rəvayətlər vardır. Amma ümumi fikir belədir ki, qədir gecəsi Ramazan ayının son on gecəsindən biridir, həm də tək günün gecəsidir. Islamşünasların fikrincə, bu gecə Ramazan ayının 19, 21, 23, 25, 27-sinə təsadüf edir. Müqəddəs Qurani Kərimin "Qədir" surəsində qədir gecəsi haqqında belə yazılmışdır: "Biz bu gecə həqiqətən qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aydan da qüdrətlidir, mələklər aşağı enərək, Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür".

Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənməyincəyə qədər yeyib-için, sonra gecəyə kimi orucunuzu tamamlayın".

Qeyd edək ki, müsəlmanlar ən mühüm ibadətlərini, o cümlədən orucu və həcci, Fitr və Qurban bayramlarını hicri-qəməri təqviminə əsasən yerinə yetirirlər. Ayın isə Günəşə və Yerə nisbətən vəziyyətindən asılı olaraq müxtəlif səfhələri (ayın görünən xarici tərəflərindən hər biri) olur. Bu səfhələrdən biri də hilaldır, yəni təzə aydır. Qurani Kərimdə deyilir ki, "(Ya Məhəmməd!) Səndən hilallar barədə soruşurlar. De: Bunlar insanlar və həcc üçün vaxt ölçüləridir". Insanlar vacib ibadətlərinə ayın hilalına əsasən əməl etmişlər: hilalı görəndə orucların başa vurmuşlar. Iki təzə ay arasında keçən müddət 29,5 orta Günəş gününə bərabərdir ki, bu da bir ay edir. Qədim ərəblər bunu vaxt vahidi kimi götürərək bəzi ayları 29, bəzilərini isə 30 gün qəbul etmişlər.

Ay ili biri 29, digəri isə 30 gün sürən 12 aydan ibarətdir. Ay (qəməri) təqvimi də buradan yaranmışdır. Bu təqvimə əsasən ilin uzunluğu 354 gün sürür. Ikinci xəlifə Ömərin dövründə qərara alındı ki, tarixləri Məhəmməd peyğəmbərin (S.Ə.S) Məkkədən Mədinəyə hicrəti ilindən hesablasınlar. Beləliklə, Məhərrəm ayı ilə başlanan hicri-qəməri təqvimi yarandı. Bütün müsəlman ibadətlərinin, bayram və mərasimlərinin vaxtı bu təqvimə əsasən müəyyən edilir. Ay təqvimi Günəş təqvimindən 10-11 gün qısa olduğu üçün hər bir müsəlman ibadətinin tarixi işlətdiyimiz Günəş təqviminə nisbətən 10-11 gün irəli keçir.

Ay təqvimində də tarixlər sabitdir, bu tarixlər yalnız Günəş təqviminə nisbətən yerini dəyişir. Bizim Günəş təqviminə alışmış şüurumuz harada-sa qeyri-müəyyənlik görür. Islam bayram və ayinlərinin müxtəlif fəsillərə təsadüf etməsində isə ilahi bir hikmət vardır.

Ramazan ayı orucluq, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması dövrüdür. Insan bu ayın dua və ibadətləri ilə eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun tərəqqisi, Allaha tərəf pərvaz etməsidir.

Ramazan ayında fani varlıqlar sanki savaş meydanına çevrilir. İmanla nəfs bu meydanda çarpışır. Nəfs hər imanlı işi udmaq, yeyib-içmək istəyir, pis vərdişlərin davamını diləyir. Inanclar mətanətlə buna qarşı çıxır, dil yalandan, göz və könül haramdan uzaqlaşır.

Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Oruclu adam sürmə çəkməməli, ətirlənməməli, tütün, gül iyləməməli və orucu pozan digər hərəkətlərdən imtina etməlidir. Orucluq dövründə insan dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu vaxt şeytan onun qəlbinə yol tapa bilmir. Peyğəmbərimiz (S.Ə.S) buyurur ki, Ramazan ayı gələndə isə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar.

Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini (qəzasını) tutmalı və ya fidyə verməlidirlər. Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.

Orucluğun başa çatdığı gün Fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.

Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

"Qabusnamə"nin müəllifi Keykavus ibn İsgəndər oğluna nəsihət edərək yazır: "Ey oğul!... bil və agah ol ki, Allah-Təalanın sənin ac və ya toxluğuna ehtiyacı yoxdur. Oruc Allah tərəfindən sənin var-dövlətinə və özünə vurulan möhürdən ibarətdir. Bu möhür mal və bədənin yalnız bir hissəsinə deyil, bəlkə, bütün üzvlərinə vurulur: əl-ayağa, gözə, dilə, qulağa, qarına.

Ey oğul, bil və agah ol: orucluğun ən böyük məqsədi ondadır ki, sən gündüz yemədiyini ehtiyacı olanlara verəsən ki, zəhmətinin faydasını görmüş olasan, elə bu zəhmət ona görə lazımdır ki, onun xeyri ehtiyacı olana çatsın".

Orucluqla bağlı dini ayinlər əvvəlki səmavi dinlərdə də (yəhudilik, xristianlıq) mövcud olmuşdur. Amma digər dinlərdən fərqli olaraq İslamda orucluq xüsusi əhəmiyyət daşıyır. Islam qaydalarına əsasən yetkinlik yaşına çatmış hər bir müsəlmana oruc tutmaq vacibdir. Bu ibadət ayini ilə bağlı Məhəmməd peyğəmbərin (S.Ə.S) xeyli hədisi vardır. Həmin hədislərin birində deyilir ki, Adəm oğlunun hər bir əməli özü üçündür. Təkcə orucdan başqa o, Allah üçündür, əvəzini də Allah verir.

Sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan idi. Lakin imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə vəzifə və iş yerlərini itirmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur idilər. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olundu, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişdi. Orucluq bayramı ölkəmizdə Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən dövlət səviyyəsində qeyd olunmağa başladı.

2024-cü il Hicri-Qəməri təqvimi ilə 1445-ci ilə təsadüf edir. Miladi tarixi ilə 11 mart 2024-cü il Ramazanın birinci günüdür. 10-11 aprel 2024-cü il Ramazan bayramı günləridir.

**"Qəbələ"**

# 31 Mart - Qanlı qırğın günü

**_1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırım törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırım törədilmişdir._**

**İlham Əliyev.**

Azərbaycan xalqı əsrlər boyu azadlıq arzusu ilə yaşamış, milli azadlıq, istiqlal uğrunda mübarizə aparmışdır. Müstəqilliyə gedən yolda bütün xalqlar ağır sınaqlardan keçir. XX əsrdə Azərbaycan xalqının müstəqillik yolunda üzləşdiyi ən böyük sınaqlardan biri 1918-ci il mart hadisələri idi. Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunan 31 Mart 1918-ci il martında azərbaycanlılara qarşı törədilmiş qanlı qırğınların xatirəsini özündə əks etdirir.

1918-ci il martın 2-də Bakı Sovetinin iclasında çıxış edən Şaumyan Müsavat Partiyasını sərt tənqid etdi, onu Azərbaycanın Rusiyadan ayrılmasına görə günahlandırdı. Faciəli hadisələrin başlanğıcında bütün Bakı quberniyasında azərbaycanlıların məhv edilməsi planını hazırladılar. Dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda Daşnaksütyun partiyasının 4 minlik silahlı dəstəsi iştirak etmişdir. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, uşaqdan böyüyədək hər kəsi qətlə yetirmişdirlər. Martın 30-da erməni-bolşevik birləşmələri Bakını gəmilərdən yaylım atəşinə tutdular. Sonra silahlı daşnaklar azərbaycanlıların evlərinə basqın edərək amansız qırğınlar törətdilər. Martın 31-də və aprelin ilk günlərində qırğın daha da amansızlaşdı. Minlərlə dinc azərbaycanlı yalnız etnik mənsubiyyətinə görə öldürüldü. Ermənilər qaçmağa çalışanları güllələmək üçün şəhərin müxtəlif yerlərində pulemyotlar quraşdırmışdılar. Mart qırğınları zamanı ermənilər bir çox qədim binaları, tarixi abidələri, o cümlədən ziyarətgahları, dünya memarlığının incilərindən sayılan İsmailiyyə binasını top atəşinə tutaraq dağıtdılar. Xəzər dənizində yerləşdirilmiş hərbi donanmanın açdığı atəş nəticəsində Cümə və Təzəpir məscidlərinin minarələri ağır zədə aldı. Daşnak silahlı dəstələri karvansarada vəhşicəsinə öldürdükləri insanların meyitlərini elə oradaca yandırdılar. Bakıda təkcə bir həftə ərzində 12 mindən çox insan, əksəriyyətini dinc sakinlər təşkil edən və əsas etibarilə müsəlman əhali vəhşicəsinə qətlə yetirilmişdir. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdi. Onlar cəsədləri yanan binalara atır, quyulara, dənizə tökürdülər. Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur - yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər…". Lakin azərbaycanlıların soyqırımı təkcə Bakı ilə məhdudlaşmırdı. Qısa müddət ərzində ermənilər Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qarsda qırğınlar törətdilər. Son zamanlar soyqırımı sübut edən çoxsaylı yeni dəlillər və sənədlər aşkar edilib. Bu soyqırımın ən qanlı epizodlarından biri də 1918-ci ilin aprel-may aylarında Quba qəzasında 167 kəndin tamamilə dağıdılması ilə baş verdi, onlardan 35-i bu günədək mövcut deyil. 2007-ci il aprelin 1-də qazıntı işləri zamanı Quba soyqırımı kütləvi məzarlığı aşkar edilmişdir. 2009-cu ildə Nazirlər Kabinetinin qərarı ilə "Quba rayonunda kütləvi qırğın qurbanlarının əbədiləşdirilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncamda kütləvi məzarlıq yerində abidənin ucaldılması nəzərdə tutulmuşdur. Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olmuşdur. Sonradan məlum olub ki, Qubada azərbaycanlılarla yanaşı, digər etnik qrupların nümayəndələri də kütləvi məzarlıqda qətlə yetirilib, o cümlədən ləzgilər, yəhudilər, tatlar basdırılmışdır.

1918-ci il mart hadisələri Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra diqqət mərkəzinə düşdü. Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Azərbaycan əhalisinə qarşı zorakılığı araşdırmaq üçün 1918-ci il iyulun 15-də AXC-nin qərarı ilə Azərbaycan əhalisinə qarşı zorakılıqları araşdırmaq məqsədilə yaradılmış komissiyanın mühüm xüsusiyyəti o idi ki, tərkibi müxtəlif millətləri - ruslar, yəhudilər, polyaklar, gürcülər və hətta ermənilərı təmsil edən o dövrün ən yaxşı hüquqşünaslarından ibarət idi. Bu amillər FTK-nın səriştəsini və qərəzsizliyini sübut edirdi. Fövqəladə Təhqiqat Komissiyasının materiallarına əsasən, azərbaycanlılara qarşı soyqırım həyata keçirən erməni quldurları Şamaxıda 8 minədək dinc sakini öldürmüşdülər. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi əhalisi ilə birgə məhv edilmişdir. Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və qocalardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq, son nəfərinədək qətlə yetirilmişdir. Erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırmış, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi məhv edilmiş, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür. Bütövlükdə Zəngəzur qəzası üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı isə qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı qətlə yetirilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kəndi dağıtmış və əhalisini məhv etmişdir. 1919-cu ilin avqust ayına qədər FTK tərəfindən toplanmış materiallar 36 cilddə 3500 səhifədən ibarətdir. Bu sübutlar əsasında FTK müxtəlif cinayətlərdə təqsirləndirilən 194 şəxsə qarşı məhkəmə iddiası qaldırmaq üçün 128 həsabat və layihə hazırlamışdır. Belə ki, avqustun ortalarına kimi Bakıda 24, Şamaxıda isə 100-ə yaxın insan həbs edilmişdir. Bu, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinə siyasi-hüquqi qiymətin verilməsinə ilk cəhd idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağı mümkünsüz etdi.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra 1918-ci ilin mart soyqırımına siyasi qiymət verməyə yenidən başladı. Məhz ümummilli lider Heydər Əliyev 31 mart soyqırımının hərtərəfli araşdırılmasına təşəbbüs göstərmiş, faciə ilə bağlı dünya ictimaiyyətinin maarifləndirilməsi kampaniyasına başlamışdır. Ümummilli lider Heydər Əliyev 31 mart - "Azərbaycanlıların Soyqırımı Günü" ilə əlaqədar demişdir: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırım qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur". Faciənin 80-ci il dönümü ərəfəsində ümummilli lider Heydər Əliyev martın 31-nin azərbaycanlıların soyqırım günü elan edilməsi haqqında fərman vermişdir. "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi və çoxlu sayda əsərlər yazılıb və xarici dillərə tərcümə edilmişdir. Fərman XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırım aktlarına siyasi-hüquqi qiymətin verilməsi üçün əsa s sənədə çevrilmişdir. Fərman həm də Azərbaycan xalqının öz milli dəyərlərinə, tarixi köklərinə, Vətəninə sədaqətini ifadə edir. Eyni zamanda, Azərbaycanlıların Soyqırımı Gününün qeyd olunması keçmişdə və indiki dövrdə azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğın və etnik təmizləmə faktlarına dünya ictimaiyyətinin diqqətini artırır.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas.**